**6-cı mühazirə**

**Platon`un müasirləri**

## A. Arxitas

Görkəmli Pifaqorçular arasında məşhur riyaziyyatçı, musiqiçi və mexanik, Magna Graecia`nın (Tarentum doğumlu) dövlət adamı **Arxit/Arxitas** ("-435/410" - "-365/350) xüsusi qeyd olunmalıdır. O, Filolaos`un tələbəsi, Evdoks və Menaexmus`un müəllimi olmuşdur. Platon`un Arxit`lə tanış (dost) olduğu, ideal dövlətdə ancaq filosofların dövlət başçısı ola bilməsi haqqında yazarkən Arxit`i nəzərdə tutduğunu deyənlər var. Platon dəfələrlə Siciliyaya gəlmiş və bir dəfə ("-361"-də) onun Sirakuz hökmdarı 2-ci Dionisiusun qəzəbindən Arxit xilas etmişdi (arxasınca gəmi göndərib onu qaçırtmışdı). Qanuna görə ancaq bir illik müddətə strateqos (general) seçilə bilərdi, lakin Arxit 7 il bu vəzifəyə seçilmiş, həmin dövrdə Tarentum inkişaf etmiş, o, bir savaşda belə uduzmamışdı.

Evklidin "Elementlər"inin 8-ci kitabının əsasən Arxitin riyazi nəticələri əsasında yazıldığı deyilir. Pifaqorçu olan Arxit riyaziyyatın **həndəsə** (durmuş, hərəkətsiz kəmiyyətlər), **hesab** (durmuş ədədlər), **astronomiya** (hərəkətdə olan kəmiyyətlər) və **musiqi** (hərəkətdə olan ədədlər) kimi dörd bölmədən ibarət olduğunu deyən ilk insanlardan biridir (orta əsrlərin **"quadrivium"**u); Arxit təhsil məsələləri ilə yaxından maraqlanmış, musiqi təhsilinin vacibliyini vurğulamışdı.

> Yeri gəlmişkən orta əsrlərdə əvvəlcə hazırlıq olaraq Trivium`un, ondan sonra quadrivium`un öyrədildiyini qeyd edə bilərik. Qramatika, məntiq, və ritorikadan ibarət olan bu üçlük "liberal arts" deyilən ümumi təhsil bacarıqlarının mərkəzində dayanırdı. Trivium latıncada üç yol (quadrivium – dörd yol) mənasını verir. "Trivial" (çox sadə, bəsit) sözü triviumdan törəyən sifətdir (adjective)!

O, məlum kubdan həcmcə iki dəfə böyük olan kub haqqında məşhur məsələnin (**$x^3=2a^3$**) təqribi həllini verən ilk riyaziyyatçı sayılır. Arxit **musiqi şkalası və musiqi harmoniyası** və bəzi digər sahələrdə də ciddi tədqiqatlar aparmışdır. K. Ptolomey "Musiqi nəzəriyyəsi" kitabında Arxitin harmoniya haqqında təlimindən söz açır, onu ən böyük musiqi nəzəriyyəçisi hesab edir. Arxitin ədədi **$(a+b)/2$**, həndəsi **$\sqrt{ab}$** və harmonik **$2ab/(a+b)$** nisbətləri tədqiq etdiyi və musiqi ilə əlaqələndirdiyi güman olunur.

Bu məsələnin mənşəi haqqında maraqlı rəvayət mövcuddur. Afinada kütləvi qırğına səbəb olmuş taun xəstəliyindən (Perikl də o qırğında ölmüşdü) xilas olmaq yolu axtaran Afinalılar **Delos`dakı Apollon falçı kahinə (orakul`a)** müraciət etmişlər. Kahin kub şəkilli Apollon qurbangahının iki dəfə böyüdülməsini lazım bilmişdi. Əsas qurma alətləri düz xətt çəkmək üçün xətkeş və çevrə çəkmək üçün pərgar olduğundan bu Delos məsələsi "pərgar və xətkeş vasitəsilə məlum kubdan həcmcə iki dəfə böyük kub qurmaq" kimi ortaya atılmış və antik dövr riyaziyyatının üç məşhur məsələsindən birinə çevrilmişdi. Burada antik dövrün digər iki məşhur məsələsini də yada salmaq olar: pərgar və xətkeş vasitəsilə məlum **bucağı üç bərabər hissəyə ayırmaq** (bucağın triseksiyası), pərgar və xətkeş vasitəsilə sahəsi məlum **dairənin sahəsinə bərabər olan kvadrat** qurmaq. Bu üç məsələnin həlli üçün çalışan riyaziyyatçılar riyaziyyata yeni anlayışlar daxil etmiş, yeni üsullar daxil etmiş, maraqlı nəticələr almış, yeni nəzəriyyələr qurmuşlar. Прасолов В. В. Три классические задачи на построение. Удвоение куба, трисекция угла, квадратура круга. М.: Наука, 1992 (Серия «Популярные лекции по математике», выпуск 62). http://math.ru/lib/plm/62

## B. Abdera Atom məktəbi/Demokritos. Demokritos`un həyatı və fizikası

Şimali Yunanıstan (Pelopennes) Abdera məntəqəsində (Thrace`də -Frakiya`da, ticarətin çiçəkləndiyi bir yer) Atom nəzəriyyəsi yarandı. **Levkipp**`in (**Leukippos**) həyatı və yaradıcılığı haqqında məlumat yox dərəcəsindədir (Aristotelin ondan danışması və alıntılar etməsi hər halda onun real şəxs olduğunu təsdiq edir; buna etiraz edənlər də var). Miletus`da doğulmuş (? "-490"), yetkin çağında Elea`ya (Magna Gracia, Cənubi İtaliya) köçmüş, Zenon`un tələbəsi olmuş, sonra Abdera şəhərinə köçmüşdü. Leukippos təsadüf deyilən şeyin olmadığını, hər şeyin bir zəruriyyətdən doğduğunu söyləyib (Demokrit də bunu təkrar edib). **Demokritos** (?"-460" - ?"-370/360") Levkippin yanına gəlmiş, onun tələbəsi olmuş, ömrünü Abdera`da da başa vurmuşdur. Onun 90 il yaşadığı güman olunur, yüzü keçdiyini iddia edənlər də olub.

Demokritos uzun səyahətə çıxmış, çox gəzmiş, alim insanlarla görüşmüş, Misir`ə və Persiya`ya, deyilənə görə Hindistana gedibmiş. "Müasirlərim arasında məndən çox gəzən olmayıb", "Afinaya gəldim, gördüm ki, heç kimin məndən xəbəri yoxdur". Atasından qalan və onun payına düşən zəngin mirası səyahətlərdə xərcləmiş və elmi həyat keçirmək üçün sərf edib. Sonra qardaşı da ona kömək edibmiş. Belə bir rəvayət də var: bu mirası boş-boşuna xərclədiyi

üçün geri qayıdanda yerlilərinin qəzəbinə düçar olmuş (ata malını dağıtmaq cinayətmiş) və gözəl bir mühazirə-söhbətlə onları heyran etmiş, təbiət hadisələrini şərh etmək və bəzən də öngörməklə (hava haqqında məlumatı) onların böyük hörmət və məhəbbətini qazanmışdır (deyilənə görə ona heykəl də qoyublarmış).

Demokritos müəllimi Levkipp`dən nə öyrənib, hansı baxışlar müəlliminə, hansılar özünə məxsusdur –bu, məlum deyil. Lakin məhz Demokritos`un sistemli bir nəzəriyyə qurduğu şübhə doğurmamalıdır (görünür ki, əsas ideyalar Demokrit tərəfindən inkişaf etdirildiyi üçün Levkipp kölgədə qalmışdır). O, Platon`un və məşhur həkim Hippokrates`in müasiri olub (sonuncu ilə dostluq edib). Demokritos`un yaradıcı maraq dairəsi çox geniş olmuş (fizika, riyaziyyat, fəlsəfə, biologiya və tibb, kosmologiya, antropologiya,...), əsərlərindən cüzi fraqmentlər qalmışdır (Platon onun adını çəkmir, Aristotel onun atomizmindən söhbət açır; Cicero (Siseron) onun əsərlərini gözəl bədii dillə yazdığını deyir). Demokrites`i qədim yunan dünyasında ən uzağa baxa bilmiş, çağdaş elmin ünsürlərini görə bilmiş bir mütəfəkkir saymaq olar. Demokritos`un Abderada məktəbi olub-olmadığı məlum deyil.

Parmenides və Zenon varlığın bir bütöv olduğunu, bölünməzliyini və hərəkətsizliyini irəli sürmüşdülər. Zenon`a görə varlıq bölünərsə, sonsuza qədər bölünməli, deməli, yoxa çıxmalı idi. Elea məktəbi`nə görə boşluq var olmayandır, yoxdur (boşluğun olması təsəvvüredilməzdir), deməli, varlığın bölünməsi üçün yol yoxdur. Anaksaqoras və Empedokles də boşluğu qəbul etmir, lakin Anaksaqoras maddənin sonsuz bölünə biləcəyini və sonsuz sayda varlıqların mövcud olduğunu irəli sürmüşdü.

Levkipp və Demokrit hər şeyin bölünəbildiyini, amma bu bölünmənin sonsuz davam etmədiyini, hər şeyin ən kiçik, dəyişməz (ancaq yer dəyişdirə bilən) və bölünməz zərrəciklərdən-atomlardan təşkil olunduğunu irəli sürdülər. “Atom” (“atomos”) sözünü Demokrites daxil etmişdir. “A” inkar bildirir, məsələn, normal və anormal, “temno” mən kəsirəm, mən bölürəm deməkdir. Beləliklə atom - bölünə bilməyən, kəsilə bilməyən mənası verir. Atom və boşluqdan başqa heç nə yoxdur (yəni, kainat iki şeydən-atomlar və boşluqdan ibarətdir). Atom içində boşluq yoxdur, “atom doludur” (bu səbəbdən də bölünməzdir, bölünməyə yer yoxdur), amma atomlar arasında atomla dolu olmayan boşluq var (yazı hərflər və onlararası boşluqlar üzərində qurulduğu kimi)! Atomlar yaranmayıb, həmişə var olub və yox olmur (yəni kainatın başlanğıcı yoxdur, o, sonsuzdur və heç kim tərəfindən yaradılmayıb). Heçdən heç nə yaranmaz və var

olan yoxa çıxmaz; dəyişmə hissələrin birləşməsi və ayrılmasından ibarətdir (Saxlanma qanunu!). Beləliklə, atomlar Elea məktəbinin Tək/Bir/Vahid dediyinə uyğun gəlir, hərçənd ki, atomların isti, soyuq, quru, yaş kimi heç bir xassəsi yoxdur.

Atomların sonsuz birləşmələri sonsuz sayda dünyaların varlığını göstərir. Boşluqda yüngül atomlar yavaş, ağır atomlar isə tez hərəkət edirlər. Yer atomların daimi toqquşmalarından doğan tufanda dünyanın mərkəzində atomların bir-birinə qovuşması nəticəsində əmələ gəlib. Yer əvvəl yüngül olub hərəkətdə idi, sonra böyük və ağır oldu. Buna görə də hərəkəti dayandı (Anaksaqor da belə hesab edirdi). Kəhkəşan (Saman yolu, Süd yolu) ulduzlar toplusudur. Ulduzlar uzaq günəşlərdir, Ay isə yerə bənzəyir – dağları, vadiləri var. Ayın işıqlanmasının səbəbi Günəş şüalarının Ay səthindən əks olunmasıdır.

Kainat sonsuz sayda müxtəlif dünyalardan ibarətdir, bu dünyaların öz günəş və ayları ola da, olmaya da bilər, onların bəzilərində həyat var, digərlərində yoxdur. Qədim insanlar şimşək, ildırım, günəş və ayın tutulması, ulduzların yaxınlaşması kimi hadisələrdən dəhşətə gəlir, bunların səbəbini tanrılarda görürdülər.Əslində **tanrılar da atomlardan təşkil olunub** (onlar atomların çox dayanıqlı, çox fərqli, bənzərsiz birləşmələridir).

> Maddələrin atomlardan təşkil olunması fikrinə hind fəlsəfəsində də (b.e.ə 6-cı əsr) rast gəlinmişdir.19-cu əsrdə Dalton və başqaları tərəfindən inkişaf etdirilən atom nəzəriyyəsi 19-cu əsrin sonlarında və 20-ci əsrin ilk üçdə birində atomun bölünəbilir olması ilə kökündən dəyişdi (amma atom kəlməsi saxlanıldı).

Cisimlərin mövcudluğu və müxtəlifliyi məhz atomların arasıkəsilməz hərəkəti və toqquşmaları nəticəsindədir. Atomların şəklində/biçimində (Demokrites`də: formalar`ında), sayında və boşluqların ölçüsündə heç bir məhdudiyyət yoxdur; bu saysız və çox müxtəlif dünyaların (arasında da bizim kosmosun) varlığı deməkdir. Düzülüş və duruşları fərqli olan atomlar digər cəhətlərdən eyni olsalar da, fərqli atom sayılırlar. Cisimlərin dad, rəng, qoxu, isti-soyuq kimi xassələri bizim zənnimizdir, hər şey atomların müxtəlifliyi ilə, atomlar arasındakı təmasla müəyyən olunur. Demokrites`ə görə başlanğıcda xaotik hərəkət edən atomların bənzər olanları bir-birinə yaxınlaşmış, ağır atomlar Yeri, atəş atomları kimi yüngül atomlar səma cisimlərini, ulduzları əmələ gətirmişlər (indi mövcud olan atomlar haqqında ağır-yüngül xassələrindən söhbət açmır).

Demokrites ruhun da atomlardan, amma daha zərif, dairəvi (alov atomlarına bənzər) atomlardan ibarət olduğunu deyir (yəni ruh da maddədir); ruh, hava və atəş bu cür gözəl atomlardan təşkil olunduqları üçün yaxınlıq edirlər.

Levkipp və Demokrit,bu iki atomçu ilk hərəkəti heç bir qeyri-adi düşüncəyə, teleoloji fikrə və ilahi varlığa bağlamamışlar! (Aristoteldən fərqli olaraq). Bu baxımdan onlar çağdaş dünyaya digərlərindən daha yaxın görünürlər. Atomçular`ın keyfiyyəti kəmiyyətə bağlamaları da onların güclü tərəfidir. Demokrites`in dünyasının, canlı və cansız aləmin mahiyyəti və qanunları materialist və mexanikdir.

### C. Demokritos`un riyazi, antropoloji, bioloji və psixoloji görüşləri

Demokritos`un hesab və həndəsəyə aid əsərləri olmuş (bu əsərlərin adları anılmışdır), lakin digər yazıları kimi qalmamışdır. Arximed oturacaqları və hündürlükləri eyni olan piramida və prizmanın həcmlərinə aid Demokrites`in teoremi haqqında məlumat verir (belə piramidanın həcmi uyğun prizmanın həcminin üçdə birinə bərabərdir); eyni nəticə piramidanı konusla və prizmanı silindrlə əvəz etdikdə də doğrudur. Arximed Demokrites bunların dəqiq isbatını verməyib deyir. Bu həcm hesablamaları Misirlilərə məlum idi. “Hətta yanlarında bir qərib kimi tam beş il yaşadığım Misirli həndəsəçilər belə mühakimə və isbat etməkdə məni keçə bilmədilər” (Friedrich Albert Lange. Materializmin tarixi və günümüzdəki anlamının eleştirisi. 1-ci cild, Sosyal yayınlar, 1998; səh. 38). Bunu, yəqin ki, həndəsədə deduktiv metodun, riyazi isbatın tətbiqi kimi başa düşmək lazımdır. Bu halda Demokritesin Misirlilərə məlum olan nəticəni isbat etməyə çalışması, bu isbatın Arximedesə gəlib çatmaması və ya isbatın tam dəqiq olmaması ehtimalı da nəzərə alına bilər. “Atomçu” Demokrites`ə, yəqin ki, həndəsi atomizm yad deyildi və o, konus və silindr halını uyğun olaraq piramida və prizmalarla sonsuz yaxınlaşmaq yolu ilə isbata çalışa bilərdi (sonralar Evdoks etdiyi kimi).

Demokrites insanların heyvansayağı həyatdan mədəni həyata doğru irəliləmə prosesini təsvir etməyə çalışmışdır (Hesiodun keçmiş “qızıl çağ” fikrinə zidd olaraq). İnsanlar ehtiyaca uyğun olaraq (təhlükələr qarşısında) müəyyən birliklər əmələ gətirir, anlaşma ehtiyacı dilin meydana çıxmasına səbəb olur, oddan istifadə etməyə başlanılır, sənət və təsərrüfat həyatı, bir sözlə insan cəmiyyəti təşəkkül tapır.

Heyvanların “qanlı” (onurğalı) və “qansız” (onurğasız) kimi iki sinfindən bəhs etmişdi (Aristotel bunu davam etdirmişdi). Bütün, o cümlədən ən bəsit

heyvanların duyğu orqanlarına malik olduqlarını irəli sürmüş, təbii saymışdı. Canlılarda əvvəl duyğu, sonra həzm orqanları əmələ gəlib. Hörümçək öz torunu öz içində düzəldib üzə çıxarır (!). Aristotel isə səhv olaraq hörümçək torunun qurumuş dəri olduğunu iddia edirdi. Demokrites`in "orqanlaşma" görüşü belə idi: beyin-düşüncə mərkəzi, ürək- cəsarət/rəşadət mərkəzi və qara ciyər hiss mərkəzidir (Aristotel`də beyin qanı soyutma mərkəzidir). Demokrites`in bir fərziyyəsi də maraqlıdır: cisimlərdən "incə/zərif" atomlar şüalanıb gözə dəyir və o cisimlər görünür, hiss olunur. Yeni/tazə ruh atomlarının bədənə daxil olması dayananda insan ölür. Ruh atomlarının itkisi (çox azalması?!) yuxuya səbəb olur. Nəfəsalma atomları (içəri) alma, nəfəsvermə atomların (kənara) verilməsidir (Anthony Serafini. The Epic History of Biology. Perseus Publishing, 1993; p. 26-27).

Demokrites duyğuların aldadıcı olduğunu deməklə yanaşı ağlın duyğulara möhtac olduğunu da vurğulayırdı (duyğuların bizi aldatdığını da duyğuların köməyilə dərk edirik). Demokrites insan həyatında ölçülü olmağı (arzuda, həzzdə"nə bolluq, nə də kəsir/ehtiyac"), təbiətə yaxın olmağı ən mühüm şey hesab edir. "Faydalı olmayan həzzdən imtina etməli". İnsanlar daha çox öz təbiətlərinə görə deyil, təlimə, məşğələ və tərbiyə almalarına görə yaxşı olurlar. "Səhvin səbəbi yaxşı olanı bilməməkdəndir". O, insanın əsas keyfiyyətini müdriklikdə, müdrikliyə gedən yolda görür. "Müdriklik üç meyvə verir: yaxşı düşünmək, yaxşı danışmaq ("söz əməlin kölgəsidir") və yaxşı əməl (hərəkət etmək) qabiliyyəti". Xoşbəxtlik ruh rahatlığından ibarətdir; ruh rahatlığı ən davamlı yaxşıdır. Cinsi həyat yaxşı deyil, çünki şüuru həzzə tabe edir. Onun qadın və qul haqlarına münasibəti mənfi idi (yunan filosoflarının çoxu kimi; dövr!?).

Demokritos`un digər yunan filosoflarının əksəriyyətindən fərqli olaraq demokratiya`ya rəğbəti vardı. "Azadlıq qul olmaqdan necə üstündürsə, demokratiyada kasıblıq da hökmdarlar yanında firavanlıqdan o qədər üstündür". İnsanların cahilliyinə filosof öz davranışı ilə necə münasibət bildirməlidir? Rəvayətə görə Heraklit ətrafdakı cahilliyi görüb ağlayarmış, Demokrites isə gülərmiş. Demokrites`in "güləyən filosof" ləqəbi vardı. Demokrites`lə bağlı rəvayətlərdən biri: hökmdar Dara ölən qızının dərdinə dözə bilmirmiş, onun dirilməsini istəyirmiş; Demokrites "mən onu dirildərəm, bu şərtlə ki, mənə üç adam göstər ki, onlar heç vaxt qəm, kədər görməyiblər" deməklə onun qəmə qatlaşmasına kömək edibmiş. Romalı filosof, yazıçı və siyasi xadim Mark T. Siseron (Cicero) (m.ö. 106-43) "görmənin əyləncəsi və gözün sədlərindən azad

olub ağılla fikrə getməyi və düşünməyi” daha doğru hesab etdiyi üçün Demokritin öz-özünü kor etdiyini yazır (?).

Deyilənə görə Platon Demokritos`a nifrət edirmiş, öz tələbələrinə Demokritos`un əsərlərini yığıb məhv etməyi tapşırıbmış (hərçənd ki, o, əsərlərində Demokritin adını çəkməyib). Aristotel Demokritosun nəzəriyyəsini səhv və ziyanlı sayırdı. O, boşluq olsa bütün cisimlər eyni (sonsuz?) sürətlə düşərdilər, çünki sürət sıxlığa görədir deyirdi.

### D. Kos Hippokrates məktəbi

Kos adasında (Bodrum yaxınlığında yunan adası) b.e.ə 460-da doğulmuş sayılan Hippokrates uzun ömür sürmüş, onun 83 və 107 il arasında yaşadığı deyilir. Yaxşı təhsil almış, müəllimləri arasında Demokritos və Sokrates öncəsi sofist və ustad-natiq Qorqias (Afina`da) da olmuşlar. Hippokrates müəyyən səyahət və yerdəyişmələrdən sonra Thessalia`da məskən salmışdır. Hippokrates özü və çoxsaylı ardıcılları ilə nəzəri və praktik tibbi müalicə üzrə əsərlər meydana gətirən bir (zehni) məktəbdir-belə demək mümkündür (Platon onun pul verənləri öyrətdiyini deyir – Roy Porter, p. 55). Əslində isə, onun atası və babası həkim olmuş (həkimliyi öncə onlardan öyrənmişdir), öz uşaqları, qızının əri, nəvəsi də həkim olub, bu özü bir ailə həkim məktəbi deməkdir, təbii ki, bu məktəbə həkimlik həvəsi olan başqaları da qoşulmuşlar. Şöhrəti onun geneologiyasını da əfsanələşdirmişdir: ata tərəfdən - Yunan tibb allahı Asklepius, ana tərəfdən - Herakles!

> Asklepiusun əsası - üzərinə ilan dolaşmış əsa tibbin rəmzidir; əsası ilana çevrilmiş, Asklepius onu öldürmüş, ağzında ot olan bir ilan ölmüş ilanı cana gətirmiş, Asklepius o otla müalicə etmişdir! Əfsanəyə görə Asklepius Apollon tanrı ilə insan-qadının oğlu imiş. Asklepius`un iki qızı da səhiyyə ilə bağlı olublarmış – Hygeia (gigiyena) və Panacea (bütün dərdlərin dərmanı/cure-all).

Onu şəxsiyyətinə, **Hippokrat korpusu** adlandırılan əsərlərin nə dərəcədə özünə və ardıcıllarına aid olmasında (təqribən 60-80 əsər; dərslik, mühazirə mətnləri!, esselər, xəstəlik tarixçələri (kliniki müşahidələr)/case notes, fəlsəfi mətnlər...), adının əfsanələşməsində, eləcə də özündən sonrakı dövrlərə təsirinə görə Pifaqorla müqayisə etmək olar. Əsərlərin sistemsizliyi, ziddiyyətləri uzun ömür sürmüş Hippokratesin həm gəncliyində, həm də yaşlı vaxtlarında yazması, xüsusilə də çoxsaylı müəlliflər tərəfindən müxtəlif əsrlər ərzində yazılması ilə izah edirlər. Bu korpusun əsas hissəsi 3-cü əsrin ortalarında Aleksandriyada

toplanılıb! Tibbi etikanın devizi sayılan **Hippokrates andı**`nın çağdaş şəkli bu gün də işlədilməkdədir.

Hippokrates `in nəzəriyyəsinə görə (**humorizm**) insan bədənində müxtəlif dörd növ maye (chymoi, yəni humor/həyat şirələri) cərəyan edir: sarı (öd?!/bile), qırmızı-qan, qara (qara öd?!), fleqm adlı maye/şirə (bəlğəm, selik); sarı mayenin qaraciyərdə, qara mayenin dalaqda hazırlandığını iddia edirdi. Bu mayelərin birinin çoxluğu insanın temperamentini müəyyən edir, mayelər arasında tarazlığın, harmoniyanın pozulması xəstəliyə səbəb olur. Bu dörd maye ilə ilin dörd fəsli, dörd element (su, topraq, hava, od), maddələrin dörd xassəsi (quru, yaş, isti, soyuq), insanın dörd yaş dövrü (körpəlik/uşaqlıq, gənclik, yetkinlik, ahıllıq) və dörd temperament arasında əlaqələrin şərhi də Hippokratın və onun ardıcıllarının əsərlərində yer almışdır. Şəkil

Sarı mayenin çoxluğu xolerik temperamenti, qırmızının çoxluğu sanqvinik, qaranın çoxluğu melanxolik, fleqmanın çoxluğu fleqmatik temperamenti müəyyən edir. Hippokrat, eyni zamanda, xəstəliklərin səbəbi və müalicəsində ehkamlara uymamağı məsləhət görürdü. Mayelər cərəyanı kimi fikir bu gün sadəlövh görünsə də, saysız-hesabsız insan tipləri arasında insanın dörd temperamentə ayrılması məsələsini Hippokrat dühasının parlaq məhsulu saymaq olar (bu ideyanı gələcəkdə Qalen təkmilləşdirəcəkdi).

Anatomiya və fiziologiya təsəvvürü xeyli aşağı olsa da (Yunanlarda meyityarma  qadağan olunmuşdu; onun heyvanları yarıb öyrəndiyi deyilir), müalicə üsulları  passiv olsa da, Hippokrates məktəbi tibbin inkişafında müstəsna rol oynadı. Skelet və böyük əzələləri daha yaxşı başa bilir, qan damarları haqqında bilikləri çox səthi olub (qədimdə, Aristotel də daxil olmaqla, arteriya və vena arasındakı fərqi bilmirdilər). Cərrahi əməliyyatlardan nisbətən az istifadə etməyə çalışılırdı (ziyan verməmək – bu, Hippokrates`in mühüm prinsipi idi). Qidalanma və idman sağlamlıq üçün ən mühüm vasitə sayılırdılar. Xəstəlik Allahların verdiyi cəza deyil (o cümlədən epilepsiya kimi xəstəliklər; Hippokrates`ə görə fleqma nəfəs yolunu tutur və bədən azad olmağa çalışır?!), həyat şəraitindən, qidalanmadan, su və havadan, ətraf mühitdən qaynaqlanır. Demokratiya və monarxiyadan da qaynaqlanır!; demokratiyada insan özünə tabedir, sağlamlıq və xaraktercə daha möhkəm olmaq imkanı var!? Asiyada xalq savaşa hazırlaşmaq deyil, savaşa getməmək yollarını axtarır?! Bütün bunlar və xəstəliyi müşahidə və sənədləşmə məsələlərinə, bir sıra xəstəliklərin ilk dəfə təsvirinə görə Hippokrates “Tibbin atası” sayılır (və ya “Qərb tibbinin atası”). Hippokrates İslam aləmində İbukrat və ya Bukrat adı ilə tanınmışdı.

Hippokratesin haqqında Platon, Aristotel və Galen qısa məlumat vermişlər, Efesli (Romalı) həkim Soranus (?98-?138) onun bioqrafiyasını yazmışdır. Həyat tarixçəsi əfsanə və ziddiyyətlərlə doludur.

### E. "Sokratesçi Kiçik Məktəblər"

Sokrates`dən sonra onun ideyalarını bu və ya digər istiqamətə yönəldən xüsusi baxışlar, dünyagörüşü sistemi və məktəb quranlar olub. Onlar "Sokratesçi Kiçik Məktəblər" adı ilə də tanınırlar. Onlardan bəziləri ilə qısa tanış olaq.

**Kinik** adı alan məktəbin qurucusu Sokrates`in (əvvəlcə sofist Qorqias`ın) tələbəsi **Antisfenes** ("-445"?-"-360"?) olsa da (Platonun yaşca böyük müasiri), onu şöhrətləndirən **Sinop`lu Diogenes** ("-412"?-"-323"?) olub. Antisfenes (ləqəbi Paradoksoloqos) Ritorika ustası Qorqiy`in, sonra Sokrates`in tələbəsi olmuş (Sokrates`ə qulaq asmaq üçün hər gün böyük məsafə (təqribən 8 km) yol qət edirdi) və Afinada Kinosargues (Kinosarqes; ağ it) gimnaziyasında öz məktəbini qurmuşdu (xəritə: 4 məktəb+. Bax: Antoloqiya Kinizma, səh. 365). O, artıq yaşlı vaxtında, Sokrates`in ölümündən sonra yaxın olduğu kübar dairələrdən uzaqlaşıb xalq arasına daxil oldu, sadə (çox sadə, dərvişşayağı) geyinir, mücərrəd fəlsəfədən uzaq durub sadə sözlərlə "təbiətə qayıdış"ı təbliğ edirdi. Hökumət, özəl mülkiyyət, din və nikahı lazımsız hesab edirdi, bunlar insanı təbiətdən uzaqlaşdırır. Antisfen "adi it" ləqəbi almışdı. İnsan xoşbəxt ölüm arzu etməlidir, "fəzilətin nə sözçülüyə, nə də elmə ehtiyacı yoxdur, fəzilət əməldədir", "düşmənlərinlə hesablaş: onlar sənin səhvlərini hamıdan tez görürlər". Məhsuldar yazar-filosof olub (10 cild). Antisfenes anlayışların (qavramların) yoxluğunu vurğulayırdı: bir at görürəm, amma atı görmürəm. Ayrı-ayrı varlıqları yalnız bir-biri ilə müqayisə edə bilərik. Aristotel (Metafizika) onu tənqid edir: "...onlara görə gümüşün nə olduğunu deyil, sadəcə qalaya bənzər olduğunu demək mümkündür". Antisfen də Elea`lı Zenon`un təsiri altında olub.

> Aristotel varlığı çoxanlamlı və çoxdərəcəli (çoxölçülü, çoxkateqoriyalı) bir anlayış kimi qəbul etməklə (qırmızı olanlar müxtəlif qırmızılığa malikdirlər!) Antisfenin görüş və paradokslarının təməlini tənqid edir (məsələn insan adları 1-ci, insanlıq, insan olmaq – 2-ci dərəcəli, canlılar – 3-cü dərəcəli...).

Gənc Diogenes (həbsdən çıxmış pul dəyişən, pulu saxtalaşdıran bir şəxsin oğlu olmuş, deyilənə görə atası ilə birlikdə Sinopdan qovulubmuş) Afinaya gəlmiş və Antisfenin arxasınca düşmüşdü; Antisfen onu qovdu, çubuqla vurdu, amma o

tərpənmədi, əl çəkmədi, Antisfen`in tələbəsi oldu. Diogenes`in mədəni mühitdən uzaq, təbii, hətta heyvansayağı, həzzə düşmən (Sokrates ölçülü həzzi və digər duyğuları qəbul edirdi) həyat tərzi ona və bu məktəbə şöhrət qazandırmışdır. Məktəbin adının da bu "itsayağı" ("kinikos") həyat tərzindən əmələ gəldiyi deyilir (gimnaziyanın adından alınması da istisna olunmur). Diogenes mütləq/radikal azadlıq üçün hər şeydən, borc və mənəvi dəyərlərdən belə uzaq durmaq lazım gəldiyini irəli sürürdü. Onun 21 əsərinin adı çəkilir. Həyatı ilə ümumi və ya şablon dəyərlərə, şərtiliklərə qarşı üsyan etmiş, hətta təcavüzkar şəkil almış, adi təmizlik, nəzakət və abır-həyanı unudurmuş. Kiniklər özlərini cəmiyyətə qarşı, qəbul olunmuş qayda və dəyərlərə qarşı qoyurdular.

Diogenes həzzə düşmən idi, rəvayətə görə çəlləkdə (və ya böyük gil qabda), çalışmadan, maddi nemətlərsiz, dilənçi payları ilə, ailəsiz,...yaşamağa çalışırdı. İti və oynaq ağlı ilə seçilirmiş. Gündüz vaxtı əlində çıraq aqorada (bazarda) "adam axtarıram" deyə gəzirmiş (Sinoplu Diogenes H.İsaxanlı`nın "Köhnə çıraq" poemasının baş qəhrəmanıdır; bax: "Bu da bir həyatdı"). Bir rəvayətə görə dəniz quldurlarının əlinə düşmüş, qul kimi satılmış, qul alverçisinin onun hansı qabiliyyəti olduğunu soruşanda "insanları idarə edə bilirəm. Kimsə özünə ağa almaq istəyirmi? Məni alsın" deyibmiş və Korinfli zəngin bir şəxs (Kseniades) onu almış, öz uşaqlarına müəllim təyin edibmiş. Korinfdə Makedoniyalı Aleksandr onun yanına gəlmiş, sərkərdənin "Mən Aleksandram – böyük hökmdar" sözünə "Mən isə Diogenes`əm – it" deyə cavab vermiş, Aleksandrın "məndən nə xahişin var, de" sözünə isə "Günəşin qabağını kəsib üstümə kölgə salma" deyərək cavab veribmiş. Guya onun həyat tərzinə və cəsarətinə heyran qalan İskəndər "Əgər İskəndər olmasaydım, Diogenes olmaq istərdim" deyibmiş.

Platonun "insan tüksüz ikiayaqlı məxluqdur" tərifinə cavab olaraq "tükü yolunmuş bir xoruz" hazırlamış, onu "Platonun adamı" adlandırmış, nəticə etibarilə Platon öz tərifini dəqiqləşdirməyə məcbur olubmuş (və yastı dırnaqlı). Platon onu "dəliləşmiş Sokrat" adlandırıbmış, xalq arasında isə sadəcə "kyon" (it) ləqəbi ilə çağrılarmış. Diogenes`in həyatı əfsanələşmiş, o, demək olar ki, folklor qəhrəmanına çevrilmiş, onunla bağlı rəvayətlər və lətifələr yayılmışdır; nəyin doğru, nəyin uydurulmuş olduğunu demək çətindir. Qaçan qulunun geri qaytarılmasını istəməyibmiş: qul mənsiz yaşaya bilirsə, mən qulsuz yaşaya bilmərəmmi?! "Sinoplular səni sürgün etdilər" deyənə "mən də onları öz yerlərində qalmağa məhkum etdim" deyə cavab veribmiş. Özünü Dünya

vətəndaşı sayırmış. "Nə vaxt evlənmək yaxşıdır?" sualına "gənclikdə hələ tezdir, qocalanda isə gecdir" deyə cavab veribmiş. "Afinalılar onu sevirdilər...Diogenesin danışığında sehrli qüvvə vardı". Harada ölməsi məlum deyil, öğlümü haqqında da bir neçə rəvayət var - öz nəfəsini saxlamaqla ölməsi də daxil olmaqla...

Sokrates`in tələbəsi **Kirenli** (Afrika) **Aristippos** (?"-435"-?"-356") da Sokratesin ölümündən sonra Afinanı tərk etmiş, bir çox yerlərdə olmuş, sonda Kirene`yə qayıdıb orada öz məktəbini qurmuşdu. Aristippos zəngin ailədə doğulmuş, zəngin həyat keçirməyə öyrəşmiş, lakin Sokrates`in adını eşidib onun yanına getmiş, öz qabiliyyəti və davranışı ilə hörmət qazanmışdı. O, əsasən, əxlaq fəlsəfəsi lə məşğul olmuşdur. Aristippos Antisfenesin tam əksinə hər şeyin dəyişməkdə olduğunu, yumşaq (hansı ki, həzz verir) və sərt (hansı ki, acı çəkdirir) hərəkətlərin yanaşı olduğunu (insan bədənində olduğu kimi) vurğulamış, xoşbəxtliyin həzzdən (yunanca: hedon) ibarət olduğunu irəli sürmüşdü, onu ilk hedonist filosof saymaq olar. Hedonist baxışlara görə gələcəyin qeyri-müəyyənliyi, gələcəyə inamın olmaması indiki anı yaşa, indi həzz al fikrini əsaslandırır. Üstəlik, Aristippos bədən/cismani həzzə üstünlük verirdi, həzzləri doğru və doğru olmayana ayırmırdı. Təbii olandan utanmaq lazım deyil. Bilgi də faydalıdır. İnsan özünə hakim olsa, ağılla hərəkət etsə daha qalıcı zövq ala bilər. Aristippos`u sofist sayanlar da var (o cümlədən Aristotel).